**Azərbaycan Respublikasının vergilər nazirinin "21" may 2015-ci il tarixli 1517040100646900 № li əmri ilə təsdiq edilmişdir.**

# VƏZİFƏ TƏLİMATI № 2-10

| | |
|---|---|
| **Strukturun adı:** | Vergilər Nazirliyinin Tədris Mərkəzi |
| **Şöbənin adı:** | Tədris və metodika şöbəsi |
| **Vəzifənin adı:** | baş mütəxəssis |
| **Vəzifə maaşı:** | 540 AZN |
| **İş yerinin yerləşdiyi yer:** | Şamaxı rayonu |
| **Bilavasitə tabe olduğu şəxs:** | şöbə rəisi |
| **Vəzifə funksiyaları:** | 1. Tədris Mərkəzində təlimlərin keyfiyyətinin qiymətləndirilməsi istiqamətində işləri icra etmək;<br>2. Dinləyicilərin təlim tələbatları üzrə məlumatları toplamaq və sistemləşdirilmək;<br>3. Tədris prosesində müasir informasiya texnologiyalarının və proqram təminatının tətbiqi ilə bağlı işlərin icrasında iştirak etmək;<br>4. Tədris və metodika sahəsi üzrə hesabatların hazırlanmasında iştirak etmək;<br>5. Dinləyicilərin biliyinin qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsi istiqamətində metodiki və təşkilati işlərin icrasında iştirak etmək;<br>6. Təlim prosesində müasir təlim metodları və alətlərinin tətbiqi ilə bağlı metodiki işləri yerinə yetirmək;<br>7. Şöbənin Əsasnaməsinə uyğun olaraq digər vəzifələri yerinə yetirmək. |
| **Təhsil və ixtisas tələbləri:** | iqtisadiyyat və idarəetmə, pedaqogika, informasiya texnologiyaları ixtisas istiqamətləri üzrə ali təhsil |
| **Staja dair tələb:** | bir qayda olaraq vergi orqanlarında 2 il xidmət, və yaxud, ali və ya əlavə təhsil müəssisələrində təhsilin təşkili üzrə 3 il staj |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS OFFICE, INTERNET) – yüksək səviyyədə istifadə |
| **Xarici dil bilikləri:** | bir xarici dil - orta səviyyədə |
| **Təşkilatçılıq bacarığı:** | aşağı səviyyədə |
| **Konfliktləri idarə etmək bacarığı:** | aşağı səviyyədə |
| **Problemi həll etmək bacarığı:** | aşağı səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | aşağı səviyyədə |

Tərtib etdi: **İnsan resursları idarəsi və vəzifə təlimatlarının hazırlanması üzrə işçi qrup**

**Qeyd:** bu vəzifə Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2005-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə müvafiq olaraq müsabiqə və ya vergi orqanlarında xidmət edən əməkdaşlar üçün Vergilər Nazirliyinin əmrləri əsasında tutulur.